“Şəki Open - 2026”

Beynəlxalq Şahmat Festivalının

Ə S A S N A M Ə S İ

1. Məqsəd və vəzifələr

1.1. Azərbaycanda şahmatın təbliği və inkişafı;

1.2. Şahmatçıların oyun təcrübəsinin və beynəlxalq reytinqinin artırılması, beynəlxalq normaların yerinə yetirilməsi;

1.3. Gənc şahmatçıların Avropa, dünya çempionatlarına hazırlığı;

1.4. Azərbaycan hakimlərinin beynəlxalq normalarının ödənilməsi.

2. Təşkilatçılar

2.1. Azərbaycan Şahmat Federasiyası;

2.2. “Premier School” Şahmat Məktəbi.

3. Keçirilmə yeri və tarixi

3.1. Festival Şəki şəhərində “Marxal Resort”-da təşkil olunacaq.

3.2. Festival 18 (gəlmə günü) - 25 iyun (son tur və bağlanış) 2026-ci tarixlərində keçiriləcək.

4. Keçirilmə qaydaları

4.1. Festival “Azərbaycan Şahmat Turu”nun (tour2026.chess.az) tərkibinə daxildir.

4.2. Festival 5 qrupda - A, B, C, Rapid, Blitz qruplarında təşkil olunur.

4.3. Yarışlar FIDE-nin oyun qaydaları əsasında keçirilir.

4.4. Qruplar üzrə tələblər aşağıdakı cədvəldəki kimidir:

4.4.1. A qrupunda 1900 və yüksək reytinqli şahmatçılar iştirak edə bilər.

4.4.2. B qrupunda beynəlxalq reytinqi 1899-dək olan şahmatçılar iştirak edə bilər.

4.4.3. C qrupunda 12 yaşadək (2014cü il təvəllüdlü və daha kiçik) oğlan və qızlar iştirak edə bilər.

4.5. Hər 3 qrupda yarış isveçrə sistemi üzrə 9 turdan ibarət olmaqla keçirilir.

4.6. Oyuna nəzarət vaxtı oyunun sonunadək 90 dəqiqə, birinci gedişdən etibarən hər gedişə 30 saniyə əlavə olunmaqla (90 dəqiqə+30 saniyə/hər gedişə) nəzərdə tutulur.

4.7. Rapid 7 turdan ibarət 10 dəq +3san nəzarət vaxtilə, Blitz 9 turdan ibarət 3 dəq+2 san nəzarət vaxtilə keçiriləcək.

4.8. A, B və C kateqoriyalarında tura gecikmə vaxtı 15 dəqiqədir.

4.9. Təşkilatçı “A” qrupuna tələbləri ödəməyən 10 nəfərədək iştirakçı buraxa bilər.

4.10. Bütün qruplarda (A, B, C, Rapid, Blitz) iki və daha çox şahmatçı eyni sayda xal toplayarsa,qaliblər aşağıdakı əmsallara və ardıcıllığa əsasən müəyyən edilir:

A, B və C qrupları, Rapid və Blitz üzrə
1. Şəxsi görüşün nəticəsi
2. Qələbələrin sayı
3. Qısaldılmış Buhqolts əmsalı (0;1) (ən pis nəticə atılmaqla)
4. Buhqolts əmsalı

4.11. Yarışların püşkatması "Swiss-Manager" proqramı vasitəsi ilə aparılacaq. Nəticələr və püşkatmalar gündəlik olaraq yarışın internet səhifəsində (shekiopen.chess.az) və www.chess-results.com saytında dərc olunacaq.

4.12. Yarışların cədvəli aşağıdakı kimidir:

Tarix	Tədbir	Saat	
18 iyun 2026	Gəlmə günü	Gün ərzində	
	Qeydiyyatın təsdiqi	10:00-20:00	
19 iyun 2026	Açılış mərasimi	14:30	
19 iyun 2026	1-ci tur	A, B və C qrupu 15:00	
20 iyun 2026	2-ci tur	A, B və C qrupu 10:00	
20 iyun 2026	3-cü tur	A, B və C qrupu 16:00	
21 iyun 2026	4-cü tur	A, B və C qrupu 10:00	Blitz 16:00
22 iyun 2026	5-ci tur	A, B və C qrupu 10:00	Rapid 16:00
23 iyun 2026	6-cı tur	A, B və C qrupu 10:00	
23 iyun 2026	7-ci tur	A, B və C qrupu 16:00	
24 iyun 2026	8-ci tur	A, B və C qrupu 10:00	
25 iyun 2026	9-cu tur	A, B və C qrupu 10:00	
	Bağlanış mərasimi	16:00	

5. Qeydiyyat və üzvlük haqqı

5.1. Qeydiyyat yarış elan olduğu gündən etibarən 10 iyun 2026-ci tarixinədək aparılır.

5.2. Qeydiyyat yalnız onlayn qaydada aparılır: shekiopen.chess.az

5.3. Yarışda iştirak üçün üzvlük haqqı aşağıdakı cədvələ əsasən müəyyən olunur:

Üzvlük haqqı	
ELOSUZ	80 AZN
ELO1699-dək	70 AZN
ELO1999-dək	60 AZN
ELO2200-dək	40 AZN
ELO2400-dək	30 AZN
Rapid/Blitz	20 AZN

5.4. Üzvlük haqqından azaddırlar:

a) Beynəlxalq Qrossmeysterlər (kişilər və qadınlar)

b) Beynəlxalq Ustalar (kişilər və qadınlar)

6. Mükafatlandırma

6.1. Ümumi mükafat fondu 25,000 AZN təşkil edir.

6.2. Mükafat fondu Azərbaycan Şahmat Federasiyası tərəfindən təmin edilir

6.3. Mükafatlar aşağıdakı cədvəllərə əsasən müəyyənləşdirilir:

Yer	A qrupu		
	Ümumi hesabda		
1	5100 AZN + kubok	Qadınlar arasında	I yer - 300 AZN
2	3400 AZN	U16	I yer - 300 AZN
3	2000 AZN	ELO 2099-dək	I yer - 300 AZN
4	1000 AZN	Yerli idmançı (Şəki)	I yer - 300 AZN
5	800 AZN		
6	700 AZN		
7	600 AZN		
8	500 AZN		
9	400 AZN		
10	300 AZN		

Yer	B qrupu		
	Ümumi hesabda	Qadınlar arasında	Reytinqsiz
1	1000 AZN + kubok	I yer - 200 AZN	I yer - 200 AZN
2	800 AZN	II yer - 150 AZN	II yer - 150 AZN

3	600 AZN	III yer - 100 AZN	III yer - 100 AZN
4	500 AZN	Yerli idmançı (Şəki)	I yer - 100 AZN
5	400 AZN	ELO 1499-dək	I yer - 100 AZN
6	300 AZN		
7	200 AZN		
8	200 AZN		
9	150 AZN		
10	150 AZN		

Hər yaş qrupunda (oğlan və qız) ən az 8 (səkkiz) iştirakçı olduqda bu mükafatlar təqdim olunur :

C qrupu	
I yer	500 AZN
II yer	350 AZN
III yer	250AZN
IV yer	200 AZN
V yer	150 AZN
U8 oğlan və qız	I yer-100 AZN
	II yer- diplom və medal
	III yer-diplom və medal
U10 oğlan və qız	I yer-100 AZN
	II yer- diplom və medal
	III yer-diplom və medal
U12 oğlan və qız	I yer-100 AZN
	II yer- diplom və medal
	III yer-diplom və medal
Elosuz	I yer-100 AZN
	II yer- diplom və medal
	III yer-diplom və medal

Rapid		Blitz	
I yer	250 AZN	I yer	200 AZN
II yer	150 AZN	II yer	150 AZN
III yer	100 AZN	III yer	100 AZN
IV yer	50 AZN	IV yer	50 AZN
V yer	50 AZN	V yer	50 AZN
Qadınlar - I yer	50 AZN	Qadınlar - I yer	50 AZN
Elosuz - I yer	50 AZN	Elosuz - I yer	50 AZN
U12 - yer	50 AZN	U12 - yer	50 AZN

6.4. Mükafat fondunun məbləği Azərbaycan Respublikasında tətbiq edilən bütün növ vergilərdən azaddır.

6.5. Bir iştirakçı mükafata layiq bir neçə yer tutarsa, yalnız 1 mükafat (ən yüksək olanını) əldə edə bilər.

6.6. İki və daha çox şahmatçı eyni xal toplayarsa mükafat bölünmür, əlavə göstəricisi üstün olan iştirakçıya verilir.

7. Yerləşmə

7.1. İlk müraciət edən və beynəlxalq əmsalı 2026-ci il aprel ayının 1-nə 2500-dən yüksək olan kişi və 2300-dən yüksək olan qadın şahmatçılar (cəmi 10 nəfər) 3 dəfə yemək daxil olmaqla təşkilatçılar tərəfindən qəbul olunur.

7.2. İştirakçılar üçün otel xərcləri aşağıdakı cədvəldəki kimi təklif olunur:

Otel	İki nəfərlik otaq (1 nəfər üçün)		Tək nəfərlik otaq	
	Səhər yeməyi ilə	3 dəfə yeməklə	Səhər yeməyi ilə	3 dəfə yeməklə
“Marxal Resort&Spa” 5*	95 AZN	155 AZN	185 AZN	245 AZN
“F Garden Holiday Village”	40 AZN	60 AZN	65 AZN	85 AZN

8. Apellyasiya

8.1. Baş hakimin qərarlarına qarşı etirazlar Apellyasiya Komissiyasına təqdim edilə bilər. Apellyasiya Komissiyasının üzvlərini seçilməsi və təyin edilməsi Təşkilat Komitəsi tərəfindən həyata keçirilir.

8.2. Etirazlar oyunun bitməsindən sonra 1 (bir) saat ərzində yalnız yazılı şəkildə və müvafiq rüsumun - 200 (iki yüz) AZN ödənilməsi ilə təqdim edilə bilər.

9. Media

9.1. Festival boyunca yalnız akkreditə olunmuş media nümayəndələrinə fotoçəkiliş edilməsinə icazə verilir.

9.2. İşıq (flash) vasitəsilə fotoçəkiliş yalnız turlar başlanandan sonra ilk 5 (beş) dəqiqə ərzində mümkündür.

10. Viza və miqrasiya

10.1. Elektron vizaları aşağıdakı linkdən asanlıqla əldə etmək olar: https://evisa.gov.az/az/

10.2. E-vizaya uyğun ölkələrin siyahısı https://evisa.gov.az/az/countries saytındadır. 10.3. E-vizaya aid olmayan ölkələrin şahmatçıları Azərbaycanın həmin ölkədəki səfirliyi ilə əlaqə saxlamalıdırlar.

10.4. Ehtiyac yaranarsa Təşkilat Komitəsi giriş vizasının alınmasında dəvət məktubu ilə köməklik göstərir.

10.5. Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyinə uyğun olaraq, əcnəbilər Azərbaycan Respublikası ərazisində olduqları halda, yaşadıqları yer üzrə 14 (on dörd) gün müddətində qeydiyyata düşməlidirlər. https://migration.gov.az/en

Əlaqə:

E-mail: shekiopen@chess.az
Veb: shekiopen.chess.az
Mob/votsap: +994 10 510 31 51 , +994 55 866 82 52

"Azərbaycan Şahmat Turu" layihəsi: tour2026.chess.az